# GÖRKƏMLİ ADAMLAR MAQSUD İBRAHİMBƏYOV HAQQINDA

Maqsud Иbrahimbəyovun xidmətləri böyükdür. Ədəbiyyatımızda, incəsənətimizdə onun özünəməxsus yeri var. Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər. Məhz bunlardan biri də Maqsud İbrahimbəyovdur. Onun yaradıcılığı, əsərləri özünəməxsus formada, məzmunda, mənadadır və bizim başqa yaradıcı adamlarımızın əsərlərindən fərqi onun məhz bu xüsusiyyətlərindədir.

***Heydər Əliyev,***
***Ümummilli lider***

Maqsud İbrahimbəyov parlaq istedada malik nasir kimi çoxşaxəli fəaliyyəti ilə Azərbaycan bədii fikrinin zənginləşməsində təqdirəlayiq rol oynamış söz ustalarındandır. Ötən əsrin 60-cı illərində yeni ədəbi prosesin formalaşmasında yaxından iştirak edən sənətkar ərsəyə gətirdiyi dəyərli nəsr nümunələrində qəhrəmanlarının xarakterini dərindən açaraq dolğun və rəngarəng obrazlar yaratmışdır. Onun, eyni zamanda dramaturq, kinossenarist və rejissor kimi Azərbaycan kinematoqrafiyasının inkişafında mühüm xidmətləri vardır. Milli koloritin qabarıq təsviri, adət-ənənələrə bağlılıq, xüsusən Bakı mühitinin özünəməxsus mənzərəsinin təsviri Maqsud İbrahimbəyov yaradıcılığını səciyyələndirən başlıca cəhətlərdir.

***

Böyük Azərbaycan yazıçısı Maqsud İbrahimbəyov yaşayacaq. Onun doğmalarının, dostlarının və istedadının milyonlarla pərəstişkarının qəlbində və yaddaşında yaşayacaq. Belə ki, nə qədər əsərləri yaşayırsa, yazıçı da sağdır. Azərbaycanın layiqli oğlunun işıqlı xatirəsinə ehtiramımı bildirirəm.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Maqsud müəllim qeyri-adi dərəcədə parlaq və çoxşaxəli şəxsiyyət idi. Dramaturq və kino xadimi, PEN-klubun prezidenti və parlamentin deputatı, parlaq həmsöhbət və parlaq polemist. Həqiqətən, bir insanda bu qədər qeyri-adi istedad və bacarıq cəmləşəndə, adamlar deyirlər ki, bu, Allah vergisidir. Doğrudan da bu, Allah vergisidir...

***

O, əsl vətənpərvər idi. O, bütün qəlbi ilə Azərbaycana, öz torpağına bağlı idi. O, cəsarətli vətəndaş mövqeyi olan insan idi. O, öz ideallarını və prinsiplərini bütün həyatı boyu dəyişməyib. O, uzun ömrünü səmimi, hər şeylə maraqlanan, biganəlikdən uzaq bir insan kimi yaşadı. O, həyatdan getdi, ancaq onun əsərləri, böyük bədii-mənəvi irsi - kitabları, pyesləri, ssenariləri, esseləri qaldı. Onun hər bir əsəri bu günümüz və dünənimizlə heyrətamiz dərəcədə səsləşir və şübhə etmirəm ki, sabah da aktual olacaq. Onun hər bir əsəri yaşayır. Buna görə də Maqsud müəllim yaşayır.

***

Əminəm ki, onun yaradıcılığına bir dəfə müraciət edən hər kəs sonra dəfələrlə onun əsərlərinə qayıdır, özləri üçün yeni nə isə tapırdılar. Onun hər bir əsəri zamanın ruhunu əks etdirməkdən başqa, həm də düşünməyə - həyatın mənası, hər kəsin bu həyatda görəcəyi işlər barədə düşünməyə vadar edirdi. Bu isə, heç şübhəsiz, yalnız həqiqi, böyük istedada nəsib olur. Maqsud İbrahimbəyov öz əsərlərini rus dilində yazırdı. Bununla yanaşı, o, əsl xalq yazıçısı olub və olaraq qalır. Onun hər bir əsəri, bütün yaradıcılığı doğma torpağa, doğma mənbələrə, doğma köklərə böyük məhəbbətlə aşılanıb. Onun sevimli Bakı şəhəri isə çox vaxt, demək olar, əsərlərinin əsas iştirakçısı idi. Maqsud müəllim mərd, cəsur insan idi. O, öz prinsiplərini bütün həyatı boyu daşıyaraq, onları müdafiə edən insan idi. O, heç vaxt fikrini deməkdən, tənqid etməkdən qorxmurdu. Onun

publisistikası Azərbaycan jurnalistikasının parlaq təbəqəsidir. Ən başlıcası isə, Maqsud müəllim bütün həyatı boyu laqeyd insan olmayıb. O, həmişə gərəkli olmağı və bu cür qalmağı bacarırdı, heç vaxt kənarda olmurdu.

***

Maqsud İbrahimbəyovun yaradıcılığı nəinki Azərbaycan mədəniyyətini və incəsənətini zənginləşdirib, həm də dünya mədəni irsinə layiqli töhfələr verib.

***Mehriban Əliyeva,***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,***
***Heydər Əliyev Fondunun prezidenti***

Maqsud İbrahimbəyovun nəsr kitablarından biri "Böyük şəhərin nağılları" adlanır. Doğrudan da "Böyük şəhərin nağılları" adlandırdığı povestlərində biz Azərbaycan nağıllarına, dastanlarına xas olan cazibədarlığı, təhkiyə şirinliyini, novellavari üslubu hiss edirik. Məsələn, "Kərgədan buynuzu" povestində hadisələr şərti-oyunvari üslubda qurulmuşdur. Povest sonacan dəyişilməyən cazibə və maraqla oxunur, bütünlükdə bədii təhkiyyənin özündə hardasa gözünə kədər və zəhər də damcılamış məzəli və şux yumorun iksiri var.

***Yaşar Qarayev,***
**akademik**

Maqsud İbrahimbəyov unudulmaz insanlardandır. Bu cür böyük şəxsiyyətlər bizim həyatımızın ən gözəl səhifələridir. Onun yaradıcılığında Azərbaycan xalqının milli xüsusiyyətləri, adət-ənənələri, xüsusilə Bakının özünəməxsus koloritinin təsviri yaddaqalan tərzdə əksini tapıb.

***Fərhad Bədəlbəyli,***
***Xalq artisti***

Maqsudla elə ilk söhbətdən sonra dünyada belə insanların varlığına görə xoşbəxt olduğumu hiss etdim. O qədər hazırcavab, reaktiv, pafossuz və hər hansı bir stereotipi olmadan, daxildən azad, hər şeyə dair öz fikirləri olan biri idi... Düşünürəm ki, onu görən kimi ona aşiq oldum.

Biz sentyabrda tanış olduq, dekabrda isə ailə qurduq. Mən işimi, hər şeyi atdım və buraya gəldim. Sadəcə başa düşdüm ki, həyatımı ona həsr edə bilərəm – ona kömək edə bilərəm, onun məişət işlərini görə bilərəm. Ona xidmət etmək istəyirdim. Çünki o dahi insan, dahi yazıçı idi.

Onun üçün Azərbaycan, Bakı, Vətən hər şey idi… – o özünü bunun xaricində heç cürə düşünə bilmirdi.

Maqsud getdi, amma ona olan sevgim məni tərk etmədi. O, həmişə mənimlədir.

***Anna İbrahimbəyova,***
***Maqsud İbrahimbəyovun həyat yoldaşı,***
***Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru***

Mənə görə Maqsud İbrahimbəyov təkcə Azərbaycan deyil, bütün dünya ədəbiyyatı üçün bir tapıntıdır. O, həqiqətən böyük yazıçı, Azərbaycan üçün fəxr olunası vətəndaş, həmçinin gözəl bir dost idi. Onun kitabları həmişə yaşayır və yaşayacaq. Azərbaycan nəinki incəsənət, ədəbiyyat sahəsi üzrə, həmçinin elm istiqaməti üzrə də dünyaya böyük şəxsiyyətlər bəxş edib. Bu cür üstün şəxsiyyətlərdən biri də Maqsud İbrahimbəyovdur. Biz onunla nəinki dost olmuşuq, hətta ən doğma insan kimi tez-tez görüşür və müxtəlif mövzularda söhbətlər edirdik. Onunla ünsiyyətdə olmaq

xüsusi zövq verirdi və bunun sehrini heç cür izah etmək olmur. Böyük şəxsiyyətlərin möhtəşəmliyi də elə bundadır.

***

“Əsilzadələr Məclisi”nə rəhbərlik edən Maqsud İbrahimbəyovun özü həm genetik, həm ruhən zadəgan nəslindən olub. Vətənpərvərliyin və xeyriyyəçilik fəaliyyətinin təbliği, uşaqlara, yoxsul ailələrə və müharibə veteranlarına yardım göstərməklə məşğul olan Azərbaycan Respublikasının Milli Sülh Komitəsinin rəhbəri Maqsud İbrahimbəyovun bu sahədəki fəaliyyəti də genişliyi ilə seçilib.

***

Maqsud İbrahimbəyovun başlıca silahı söz idi. O, söz duelində qeyri-adi dərəcədə zərif idi, eyni zamanda söz döyüşündə alınmaz sədd idi. Yazıçı sözün qüdrətinə, sözün hər şeyə qalib gələcəyinə inanırdı və o, tam haqlı idi.

***Mixail Qusman,***
***jurnalist, tərcüməçi və aparıcı***

Oxuduqca qürur duyuruq ki, Xalq yazıçısı Maqsud İbrahimbəyov qeyri-adi və gündəlik hadisələr haqda özünəməxsus tərzdə yazıb, personajlarının mənəvi dünyasını dərindən tədqiq edərək, xasiyyətlərini oxucuya çatdırıb. Bir çox əsərlərində yazıçı ümumbəşəri problemlər kontekstindən çıxış edərək, öz ənənələri ilə güclü olan Şərq insanının həyat tərzini göstərib. Yazdıqları onun sabaha məktubları kimi dəyərlidir.

***Əli Nəcəfxanlı,***
***Əməkdar jurnalist***

Uşaqlıq və yeniyetməlik illərində, bəxti gətirib, Maqsud İbrahimbəyovun yaradıcılığıyla tanış olanlar həmişəlik onun vurğununa çevrilirlər. Onun kitablarına həmişə böyük ehtiyac duyurlar.

***Nadejda İsmayılova,***
***Əməkdar jurnalist***

Hamımızın sevdiyi “Bizim Cəbiş müəllim”, “Uşaqlığın son gecəsi” filmlərinin ssenari, “Mezozoy əhvalatı”, “Sən nəğməmsən mənim”, “Truskavetsə kim gedir?”, “Bütün yaxşılıqlar üçün – ölüm!” və digər əsərlərin müəllifi Maqsud İbrahimbəyovun oxucu və tamaşaçılarının sayı milyonlarladır. Çünki onun təbliğ etdiyi dəyərlər əbədilik kateqoriyasındandır.

***Eyyub Qiyas,***
***yazıçı***

Maksud İbrahimbəyovun kinopovesti güclü təsir buraxır. O, ilk növbədə, balaca qəhrəmanın daxili aləminin dərinliklərinə nüfuz edə bilmək məharəti ilə, eyni zamanda, sözünü çox dəqiq və zəhlə tökmədən, zorla sırımadan deməyi bacarması, duzlu, məzəli ironiyası və nəhayət, ilk baxışda o qədər də vacib olmayan detallar və müşahidələr tapmaq bacarığı ilə ürəkləri fəth edir.

***Leonid Baxnov,***
***tanınmış kino tənqidçisi***